# Son onillikdə Azərbaycan kitab qrafikasının inkişafı

**Bu dövrdə kitab qrafikasında uşaq ədəbiyyatı, kiçik və orta yaşlı məktəblilər üçün nəzərdə tutulan kitabların tərtibatı sahəsində xeyli maraqlı işlər meydana çıxmışdır.**

2000-ci illərdə azyaşlı uşaqlar və ibtidai sinif şagirdləri üçün nəzərdə tutulan kitabların tərtibatı və illüstrasiyaları üzərində çalışan rəssamlardan Altay Hacıyevin "Şah və qarışqa", İbrahim Həsənovun "Dirilik suyu", "Dörd usta qardaş", "Alisa möcüzələr ölkəsində", "Çirkin ördək balası", Azər Ələkbərovun "Düyməcik", S.İ.Mirzalyevin "Nağıllar aləmində", "Bremen musiqiçiləri", C. Dərbəndinin "Ovçu Pirim", "Şəngül, Şüngül, Məngül", N.Yunusovun "Qaraca qız", "Pəhləvan Hüseyn", "Sehirli sünbül", "Azərbaycan nağılları" (2005), "Təpəgöz", A. Azayın "Vəfalı at", Mais Əliyevin "Uçan xalça", "Göy qurşağı qardaşları", "Dəniz balası", Zöhrab Cabbarovun "Bostançı və şah Abbas", Orxanın "Min dovşan otaran çoban", Ramil Əliyevin "Yeddi qardaş" və s. işləri orijinal ifadə tərzinə, uşaq qavrayışı üçün aydın və anlaşıqlı təsvir vasitələrinə, canlı və dinamik kompozisiyalarına görə seçilirlər.

Kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulan kitabların bədii tərtibatı və illüstrasiyalarının qiymətləndirilməsi, onlara, təkcə əsərdəki hadisələri daha yaxşı anlamaq və yaxud qəhrəmanın xarici görünüşü haqda məlumat vermək prinsipindən xeyli irəli gedərək, bütövlükdə yaxşını və pisi, həyatı və gerçəkliyi dərk etmək, onun zövqünü formalaşdırmaq platformasından nəzərdən keçirilməlidir.

Bu vaxt ədəbi materialın plastik formalarda təzahürü elə qurulmalıdır ki, uşaq təfəkkürü üçün aydın, tanınan və anlaşıqlı olsun. Mütənasibliklərin quruluşu, əşya və fiqurların strukturu, onların məkandakı yeri və mövqeyinin düzgün tapılması materiala bədii yanaşma tələb edir. Çünki təkcə fiquru və ya əşyanı yerində təsvir etmək uşaq üçün çox azdır, onlar arasındakı münasibəti ifadə etmək, mütənasiblikləri və onların yerləşdikləri məkanı plastik cəhətdən bütöv və tam şəkildə göstərmək bacarığına malik olmaq lazımdır.

Rəssam Cəmaləddin Dərbəndinin "Çaşıoğlu" nəşriyyatında 2001-ci ildə çap edilən "Ovçu Pirim" nağılı və Mikayıl Müşfiqin "Şəngül,Şüngül, Məngül" mənzum nağılına çəkilən illüstrasiyaları, maraqlı kompozisiya quruluşu, məkanın və fiqurların plastik həlli, kontrast və ritmlərin dəqiq ifadəsinə görə seçilir. Rəssam çox vaxt səhifənin bir hissəsini tutan illüstrasiyaları mətnlə bir məkanda yerləşdirməklə, ədəbi əsərin mətnin təsvirdə dəqiq ifadəsinə nail olmuş, əyaniliyi ilə seçilən, aydın və uşaq təfəkkürü üçün anlaşıqlı olan illüstrasiyalar yarada bilmişdir.

Bu baxımdan rəssam İbrahim Həsənovun, kisik yaşlı uşaqlar üçün nəzərdə tutulan kitabların bədii tərtibatı və illüstrasiyalaşdırılması sahəsində böyük təcrübə və səriştəsi diqqətəlayiq hesab edilməlidir. Rəssam istər milli, istərsə də xarici uşaq ədəbiyyatı illüstrasiyaları və kitablarının tərtibatı üzərində işləркən, əsərdə baş verən hadisələrə uşaqların baxış mövqeyindən yanaşır. Məsələn, "Alisa möcüzələr ölkəsində" kitabındakı Alisa, Kral, Kraliça, Dovşan, "Təpəgöz" nağılındakı Təpəgöz, Aruz qoca, Cavan, "Dirilik suyu"ndakı Kral, "Çirkin ördək balası"ndakı Ördək dəqiq xarakteristikya malik olan, özünəməxsus plastik forma quruluşu, məkanda konkret yeri müəyyənləşdirilmiş personajlardandır. Belə dəqiq işlənən formaları uşaqlar tez qəbul edir, onları yaxşı yadda saxlayırlar.

Altay Hacıyevin "Turan" Nəşrlər Evində 2001-ci ildə çap olunan "Sultan şah və qarışqa" kitabının bədii tərtibatı və illüstrasiyaları nəinki, nağılın yaxşı dərk edilməsinə imkan verir, həmçinin, kiçik yaşlı uşaqların estetik zövqünün formalaşdırılmasında da mühüm əhəmiyyət kəsb edir. Rəssam kitabı orta əsrlər Şərq kitab mədəniyyəti üçün xarakterik olan miniatür üslubunda işləmiş, "müsbət" və



"mənfi" kateqoriyalarına mənsub olan personajların xarakteristikasını üz cizgilərinin həllində, mimika və jestlərində aydın şəkildə həll etmişdir.

Bu dövrdə orta və yuxarı yaşlı məktəblilər üçün nəzərdə tutulan kitabların bədii tərtibatı və illüstrasiyası sahəsində uğurlu addımlar atılmışdır. "Məktəblinin kitabxanası", "Dünya uşaq ədəbiyyatı", "Dünya ədəbiyyatından seçmələr", "Azərbaycan nağılları" və b. bu kimi uşaq ədəbiyyatı seriyaların nəşr edilməsi kitabların bədii tərtibatına marağı artırmış, illüstrasiyalaşdırılmasına tələbatı yüksəltmişdir.

2000-ci illərdə kitab qrafikası sahəsində müvəffəqiyyətlə çalışan rəssamlar arasında Zöhrab Cabbarov, Cəmaləddin Dərbəndi, Rəsul Hüseynov, N.Yunusov, Mais Əliyev, Elçin Cabbarov, İlqar Tofiqoğlu, Söhrab Hüseynov və b. göstərmək olar.

Bu dövrdə müxtəlif nəşriyyatlar tərəfindən, orta və yuxarı yaşlı məktəblilər üçün nəzərdə tutulan, yüksək bədii dəyərə malik, tərtibatı və illüstrasiyaları baxımından maraqlı kitablar nəşr edilmişdir. Bu nəşrlər üzərində işləyən rəssamlardan C.Dərbəndinin "Məlikməmməd", "İsgəndər Zülqərneyn", N.Yunusovun "Azərbaycan nağılları", "Təmsillər. Tərcümələr", Mais Əliyevin "Salur Qazanın evinin yağmalanması", "Yeynəyin dastanı", "Uruzun dastanı" İsmayıl Məmmmədovun "Məhəbbət ölüncə var", Rəsul Hüseynovun "Gün dağlara yayıldı", Söhrab Hüseynovun "Bir qız, bir oğlan, bir də ovçu Qurban", Buludun "Özünü gözə soxan tüstü", "Qoçaq Səməd və tütək çalan mələk", Elçin Cabbarovun "Dəfinələr adası", "Başsız atlı" kitablarına çəkilən illüstrasiyaları və bütövlükdə bu kitabların bədii tərtibatları kitab qrafikamızın nailiyyətləri kimi qiymətləndirilməlidir.

Kitab qrafikası sahəsində uzun illərin təcrübəsinə malik olan Cəmaləddin Dərbəndinin "Azərbaycan nağılları" silsiləsindən "Məlikməmməd" və "İsgəndər Zülqərneyn" (2001), kitabları üçün işlədiyi çoxpanlı illüstrasiyalar, nağıl mühitinin və fantastik qəhrəmanların obrazlı ifadəsinə, xeyirlə şərin mübarizəsi üzərində qurulan konfliktin kəskin şəkildə qabardılmasına xususi diqqəti ilə yadda qalır. Rəssam nağıl mühitinin həllində, milli element və detalların ümumi xarakterini əks etdirməyə nail olmuş, Şərq ornamentallığından geniş şəkildə bəhrələnmişdir.

Bu baxıdan Mais Əliyevin 2001-ci ildə "Kitabi-Dədə Qorqud dastanı"nın ayrı-ayrı hissələri olan "Salur Qazanın evinin yağmalanması", "Yeynəyin dastanı", "Uruzun dastanı"nın məktəblilər üçün dərc edilən kitablara çəkdiyi illüstrasiyalar mövzunun əhatəliyinə və əyani şəkildə hadisələrin ifadəsinə görə diqqətəlayiqdir. Rəssam illüstrasiyalarında tarixilik prinsipinə sadiq qalaraq, hadisələrin baş verdiyi məkanın şərti şəkildə çatdırılmasına nail olmuş, obrazların xarakterinin həllində tipik olan xüsusiyyətləri qabartmış, xırda məişət detallarını ümumiləşdirərək, hadisələrin baş verdiyi mühiti əks etdirə bilmişdir.

2002-ci ildə Söhrab Hüseynovun tərtibatında, Əşrəf Hüseynovun "Bir qız, bir oğlan, bir də ovçu Qurban" nağıllar kitabı "Gənclik" nəşriyyatında, müəllifin 70 illik yubileyi münasibəti ilə çapdan çıxmışdır. Kitaba rəssamın, akvarel texnikasında yerinə yetirilən on üç illüstrasiyası daxil edilmişdir.

Zöhrab Cabbarovun "Altun" nəşriyyatı tərəfindən çap olunan "Məktəblinin kitabxanası" seriyası üçün işlədiyi "Azərbaycan nağılları" silsiləsindən "Ağ atlı oğlan", "Bostançı və şah Abbas", "Daşdəmir", "Azərbaycan klassik ədəbiyyatı" silsiləsi üçün "Qorxulu nağıllar" (S.S.Axundov), "Dünya ədəbiyyatından seçmələr" silsiləsi üçün "Heraklın on iki qoçaqlığı", "Şifahi xalq ədəbiyyatı" silsiləsi üçün "Tarixi rəvayətlər" (2005) kitablarının bədii tərtibatının yüksək qrafik səviyyəsi, illüstrasiyalarında müəllif üslubunun ifadəsi, əsərin tarixilik baxımından plastik məkan həlli, personajların fiqurativ traktovkasının və bütövlükdə kitabın obrazının tapılması baxımından maraqlıdırlar.

2006-cı ildə Robert Luis Stevensonun "Dəfinələr adası" kitabı Elçin Cabbarovun illüstrasiyaları ilə "Altun" nəşriyyatında çap edilmişdir. Rəssam kitab üçün qara tuş texnikasında yerinə yetirilən iyirmi dörd illüstrasiya işləmiş, cild və titul vərəqinin tərtibatını isə akvarel texnikasında yerinə yetirmişdir. Mürəkkəb kompozisiyaya malik, çoxfiqurlu illüstrasiyalarında rəssam, süjet xəttinin əsas məqamlarını əks etdirmək prinsipinə sadiq qalmış, obrazları dinamik hərəkətdə və gərgin münasibətlərdə əks etdirmiş, əşya-məkan mühitinin həllində tarixilik və dövrün tipik xarakterini yaradan məqamları diqqət mərkəzində saxlamışdır.

Rəssam 2007-ci ildə isə "Altun" nəşriyyatında çap edilən Mayn Ridin "Başsız atlı" kitabı üçün qatra tuş texnikasında on yeddi illüstrasiya işləmişdir. Bu illüstrasiyaların altısı cüt səhifə üçün üfüqi kompozisiyada, on biri isə tam səhifə formatında işlənmişdir. Kitabin cildinin və titul vərəqinin tərtibatı isə akvarel texnikasında yerinə yetirilmişdir. İllüstrasiyalarda rəssam müəllif ideyasının çatdırılması, çoxsaylı obrazların xarakterlərinin ifadəsi, hadisələrin inkişafını və kulminasiyasını əks etdirmək, bədii əsərin arxitektonikasını çatdırmaq məqsədinə nail olmuş, yüksək professional qrafika mədəniyyətinə malik illüstrasiyalar yaratmışdır.

Milli qrafika formaları ilə bərabər rəssamlarımız Avropa qrafikasına xas olan qrafik ifadə vasitələrindən də geniş istifadə edirlər.

Deyilənlərə misal olaraq, gənc nəsil qrafikalarından olaraq Mətanət Aslanovanın "Gecə yuxuları" adlı nağıllar toplusuna çəkdiyi illüstrasiyaları göstərmək olar. Klassik miniatür və avanqard incəsənətin ifadə formalarından istifadə edən rəssam sehirli nağıllar dünyası obrazını yarada bilmişdir.

Klassik Avropa qrafikasının bədii ifadə vasitələri digər gənc rəssam Ramil Əliyevin yaratdığı F.Baumun "Oz şəhərinin sehirbazı" nağılına çəkilmiş illüstrasiyalarda diqqəti cəlb edir. Rəssam qrafikaya xas cizgi mədəniyyətini animasiya filmləri üçün səciyyəvi obrazlarla birləşdirərək, yeni plastik ifadə tərzinə yiyələnmişdir.

Dünya ədəbiyyatına illüstrasiyalar yaradan Kübra Salamova qrafika vasitəsilə Afrika mədəniyyətinə xas tipajları və ornamental motivləri canlandırmağa cəhd edir. Onun "Afrika motivləri" kitabına yaratdığı illüstrasiyalarında Afrika motivləri yalnız mövzu və tipajlarda deyil, eyni vaxtda zəngin ornamental dekorda da özünü büruzə verir.

Beləliklə, müstəqillik dövründə Azərbaycan kitab qrafikası sahəsindəki ən maraqlı işlərlə tanışlıq, kitab tərtibatı sahəsindəki mühüm məqamlar və bu dövrdə çap olunan kitablara çəkilən illüstrasiyaların araşdırılması, bu sahədə çalışan rəssamlarımızın uğurlu işlərinin tədqiqi bizə belə bir nəticəyə gəlməyə imkan verir ki; 1992-2010-cu illərdə Azərbaycanda kitab qrafikası sahəsində rəssamlarımız müvəffəqiyyətlə çalışmış, bir-birindən maraqlı kitabların meydana çıxmasında böyük səylə fəaliyyət göstərmiş, müasir oxucularda kitaba marağın artırılması, onun bədii tərtibi və illüstrasiyalaşdırılması sahəsində xeyli işlər görülmüş, milli kitab qrafikasının inkişafı sahəsində səmərəli addımlar atmışdırlar. Kitab qrafikası klassik, uşaq və tərcümə ədəbiyyatı nümunələrinin obrazlı simasının yaradılması, müəllif ideyasının çatdırılması və kateqoriyasından asılı olaraq, müxtəlif qruplar üçün nəzərdə tutulan kitabların bədii tərtibatı sahəsinin inkişafı istiqamətində əzmlə çalışmışlar.

**Kitab qrafikasının tərkib hissəsi olan bədii tərtibat elementlərinin, o cümlədən super cild, cild, forzas, frontispis, titul vərəqi, titul dönüşü, şmustitul, şrift, başlıq, sonluq, haşiyənin hər bir kitab üçün yeni forma yaradıcılığının formalaşdırılması istiqamətində atdıqları addımlar, eləcə də bədii əsərə çəkilən illüstrasiyaların kompozisiya, həcm-məkan, obraz və forma yaradıcılığı sahəsindəki uğurlu tapıntıları, bu sahənin gələcək inkişafına müsbət təsir göstərməklə yanaşı, onun daha da təşəkkülü üçün münbit zəmin yaratmışdır.**

● **Ramil ƏLİYEV,**
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının doktorantı*

## Ədəbiyyat

1. Əliyev R. XX əsrin 90-cı illərində Azərbaycan dəzgah qrafikasının inkişafı. "İncəsənət və Mədəniyyət problemləri". - 2008, №2.
2. Rabindranat T. Seçilmiş əsərləri. Bakı. - 2010.
3. Baum F. Oz şəhərinin sehirbazı. Bakı - 2008.

## Резюме

В статье дается обзор развития книжной графики Азербайджана за последнее десятилетие. В ретроспективном анализе нашло отражение творчество художников среднего и молодого поколения. Анализируются книжные иллюстрации художников-графиков в изданиях последнего десятилетия. В выводах нашло отражение расширение художественных приемов, используемых современными художниками книги.

## Summary

In article the review of development of a book drawing of Azerbaijan for last decade is given. In the retrospective analysis has found reflection creativity of artists of average and young generation. Book illustrations of artists-schedules in editions of last decade are analyzed. In conclusions has found reflection expansion of the artistic touches used by modern artists of the book.